# Vətən üçün yaşanan qəhrəman ömrü

*Elməddin Cəfərqulu oğlu Babayev bu işıqlı dünyada cəmi 39 il yaşadı. Qaldı ki Tanrının bəxş etdiyi ömür yolunu bütöv bir millətin qürur, iftixar tarixçəsinə çevirdi. Biləsuvar rayonunun Çaylı kəndində halal, zəhmətkeş bir ailədə boya-başa çatan qeyrətli oğul 44 günlük haqq savaşımızda sinəsini Vətənə sipər etməklə, onu alınmaz qalaya döndərdi. Vətən üçün yaşadı, elə bu ilahi sevgi ona əbədiyaşarlıq gətirdi. Canından artıq sevdiyi Azərbaycan var olduqca, Biləsuvar elinin igid oğlu Elməddin də ürəklərdə yaşayacaq. Gələn nəsillərə də şərəfli ömür yolu örnək olacaq. Bizə əmanət qoyduğu 3 övladı da onların içində.*



Elməddin Babayev 1988-1999-cu illərdə təhsil aldığı doğma Çaylı kənd orta məktəbində oxuyanda onun yurduna, torpağına sevgisi, düşmənə nifrət hissi hamını heyran qoyub. Hər zaman çalışqanlığı, nümunəvi tərbiyəsi, ən əsası düzgünlük naminə qətiyyəti Elməddinə hörmət qazandırıb. Düşmən tərəfindən Qarabağın işğalına görə orta məktəbi bitirib ordu sıralarına getməyi hər şeydən üstün bilib. Həqiqi hərbi xidməti zamanı igidliyi, mərdliyi ilə seçilib, komandirləri tərəfindən verilən bütün tapşırıqları dəqiq və vaxtında yerinə yetirib. Təlimlərə ürəklə qatılıb yüksək döyüşçü keyfiyyətləri göstərən Elməddin həmişə silaha sarılıb erməni dığaların üstünə getməyə məqam gözləyib.

Nümunəvi əsgər yağıdan əsir torpaqlarının qisasını almaq üçün həyatını hərbiyə bağlayıb. Döyüş bölgəsi olan Goranboy rayonunda gizir rütbəsində silahı yerə qoymayıb və Vətəni göz-bəbəyi tək qoruyub.

Vətən torpağının düşmən tapdağında qalmasına heç cür barışmayan Elməddin Babayev 2020-ci ilin sentyabrında başlanan İkinci Qarabağ müharibəsinə qətiyyətlə, inamla, qələbə eşqi ilə yollanıb. Qarabağ həsrətinə, xalqın yüzillik nisgilinə son qoymaq üçün döyüşə girdiyi andan yağının başına od ələyib. Həmçinin öndə getməklə savaş meydanında çətin əməliyyatlarda Elməddinin iradəsi, cəsarəti yoldaşlarına güc verib. Azad olunan Vətən torpaqların bağrına zəfər bayraqları sancıldıqca o, yağıya qarşı daha ürəklə döyüşüb. Ölümə meydan oxumaqla hər dəfə çoxlu sayda erməni dığasını məhv edib. Elməddinin Tərtərin Suqovuşan kəndi istiqamətində gedən döyüş əməliyyatları zamanı göstərdiyi igidlik isə əsgər yoldaşlarının yaddaşında əbədi iz qoyub. Əsl dastan qəhrəmanına bənzəyən, qəlbi Vətən sevdalı oğul özü burada şəhid olsa da, yağı ağır məğlubiyyətlə üzləşib...

Beləcə bir sadə, çörəyi halal zəhmətdən çıxan ailənin gərdişində boya-başa çatan gənc döyüş meydanında qazandığı şərəfli ölümü ilə bütöv Azərbaycanın qəhrəman oğlu kimi tarixə düşüb. Elməddinin göstərdiyi misilsiz şücaətinə dövlət tərəfindən də yüksək qiymət verilib. Belə ki, şəhadətdən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən bir neçə ali təltifə - "Vətən uğrunda", "Şücaətə görə", "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Bəli, Elməddin ilk qədəmlərini atdığı torpağın müqəddəsliyinə ürəkdən tapındı və bununla əbədiyyətə getdi. O, cismən aramız da olmasa da, öz xalqının ədədi qeyrət dastanıdır...

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*